# Qurtuluşdan Zəfərədək

***Tarixdə elə hadisələr, günlər olur ki, onlar illərlə, əsrlərlə yaddan çıxmır, unudulmur. Bir xalqın taleyi, gələcəyi ilə bağlı olan belə anlar ölməzlik qazanır, əbədiləşir və insanların qürur rəmzlərinə çevrilir.***



***Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır.***

***Heydər ƏLİYEV***
***Ümummilli lider***

15 İyun Azərbaycan xalqı, dövləti üçün unudulmaz, mən deyərdim ki, müqəddəs bir tarixdir. Ali məqsədlərə önəm vermək, insanların azadlığını, xoşbəxtliyini, gələcəyini təmin etmək, onlarda ümid, inam yaratmaq müqəddəslkdir. Bu baxımdan 15 İyun tarixi Azərbaycanın ən unudulmaz, müqəddəs günlərindən biridir.

Ümummilli lider Heydər Əliyev 1993-cü il iyunun 15-də yenidən siyasi hakimiyyətə gəlişi ilə Azərbaycan xalqını çox ağır bəlalardan hifz etdi, ölkənin müstəqilliyinin əldən getməsinin qarşısını aldı. Torpaqlarımızın daha geniş şəkildə zəbt olunmasına imkan vermədi, ölkəmizi dəhşətli vətəndaş müharibəsindən xilas etdi.

Həqiqətən də müstəqillik əldən gedirdi. AXCP–Musavat cütlüyü ölkəni idarə edə bilmirdi. Torpaqlar kənd-kənd, şəhər-şəhər ermənilər tərəfindən zəbt olunmaqda idi. Heç bir təşəbbüs, heç bir təşkilatçılıq görünmürdü və demək olar ki, insanlar ümidsiz halda yaşayırdılar. Gələcəyə inam itmişdi, ordu quruculuğu yox idi, ölkədə aclıq başlamışdı, artıq qardaş-qardaşa silah qaldırırdı, rayonlar bir-bir boşaldılır və bu vəziyyətdən istifadə edən istər xaricdəki, istərsə də daxildəki qüvvələr ölkəni talan edir, viran qoyurdular.

Belə bir çətin dövrdə Heydər Əliyev xalqın arzusu ilə hakimiyyətə gətirildi və müdrik xalq öz qənaətində yanılmadığını bir daha sübut etdi. Ona görə də Azərbaycan xalqı keçmişə nəzər salarkən, həmin günlərin acılarını heç zaman unutmamalıdır. Çünki, həqiqətən də, 15 İyun bizim qurtuluş tariximizdir və həmin günün bəhrələri özünü həyata keçirilən tədbirlərdə, ölkə Prezidentinin fəaliyyətində, onun uzaqgörən siyasətində açıq-aydın göstərir.

1993-cü il 15 İyun – Qurtuluş Günü olmasaydı, biz sonrakı qələbələrdən, nailiyyətlərdən, yüksək göstəricilərdən, beynəlxalq aləmdə qazandığımız uğurlardan danışa bilməzdik. Məhz həmin günün təntənəsi bu qələbələr üçün zəmin hazırlayıb, bu zəfərlər üçün bünövrə olmuşdur. 15 İyundan başlanan uğurlar, ulu öndər Heydər Əliyevin qəbul etdiyi qərarlar, sərəncamlar, fərmanlar, bağlanılan müqavilələr, həyata keçirilən layihə və proqramlar bugünkü inkişafımıza yol açıb, iqtisadiyyatın yüksəlişi üçün bir əsas olub və sözsüz ki, biz bunları həmişə qeyd etməliyik.

İnsan ağlı, zəkası, fəaliyyəti ilə tarixi ucaldır, yaşadığı dövrü sürətləndirir, əbədiləşdirir. Ümummili liderimiz Heydər Əliyev tarix yaradan, həm də tarixi əbədiləşdirən bir şəxsiyyətdir. Məhz buna görə də XX əsrin 60-cı illərindən XXI əsrin əvvəllərinə kimi olan dövr Heydər Əliyev epoxası kimi tarixə çevrilmişdir.

Biz bu gün Qurtuluş Gününü qeyd etdiyimiz anlarda keçmişi – Heydər Əliyevin sovetlər dövründə Azərbaycana rəhbərlik etdiyi illəri tez-tez xatırlamalı oluruq. Bu, inkarolunmaz bir həqiqətdir ki, Azərbaycan xalqının qurtuluş salnaməsi, ölkəni müstəqil dövlət quruculuğuna və inkişafa aparan yol, əslində, 1969-cu ildən – Heydər Əliyevin respublika rəhbərliyinə gəlişindən sonra başlamış, məhz o dövrdə milli özünüdərkin, milli özünəqayıdışın möhkəm bünövrəsi qoyulmuşdur.

O illərdə də azərbaycançılıq, milli şüurun yüksəlişi, milli özünüifadə, milli-mənəvi dəyərlərə sadiqlik Heydər Əliyev idarəetmə fəlsəfəsinin ideya-siyasi istiqamətlərini təşkil etməklə xalqın, ölkənin inkişafına, tanıdılmasına, özünü təsdiq etməsinə yönəldilmiş və əbədi dəyər qazanmışdır. Hər birimizin yaxşı xatirindədir, bir vaxtlar keçmiş İttifaqın geridə qalan bir respublikası olan Azərbaycan Heydər Əliyevin bacarığı, təşkilatçılığı, vətənpərvərliyi sayəsində ətalətdən, gerilikdən qurtuldu, insanların fəallığı, təşəbbüskarlığı, işə münasibəti yüksəldildi, iqtisadiyyatda, mənəviyyatda hökm sürən böhran, saxtakarlıq, məsuliyyətsizlik aradan qaldırıldı. Ölkə iqtisadiyyatı, xüsusilə kənd təsərrüfatı inkişaf etdirildi, yeni sənaye müəssisələri işə düşdü. Qısa müddət ərzində elektronika, cihazqayırma, elektrotexnika kimi mütərəqqi, elmtutumlu sahələr yaradıldı. Yeni zavodların, fabriklərin təməli qoyuldu, ixtisaslaşdırılmış hərbi məktəb açıldı.

O illərdə bütün sahələrdə dönüş yaradıldı. Yeni məktəblər, mədəniyyət, tibb ocaqları tikilib istifadəyə verildi. Kadr hazırlığı sahəsində böyük tədbirlər həyata keçirildi. Mühüm xidmət sahələrində milli kadrların yerləşdirilməsi təmin edildi, insanlara sosial qayğı artırıldı, mədəni-kütləvi tədbirlərin sayı çoxaldıldı, səmərəsi artırıldı, insanlar əməyinə, işinə görə qiymətləndirildi, mükafatlandırıldı.

O dövrdə Heydər Əliyev Azərbaycan torpaqlarının hissə-hissə hiylə yolu ilə Ermənistan ərazilərinə qatılmasının qarşısını aldı. Məgər bütün bunlar qurtuluş, inkişaf, tərəqqi deyildimi?

İqtisadiyyatı çökmüş, böyük problemlər içərisində olan bir respublikanı təkcə İttifaq miqyasında deyil, beynəlxalq aləmdə tanıtdırmağı, iri miqyaslı quruculuq, tikinti-abadlıq işləri görməyi, ictimai-siyasi, mədəni həyatda köklü dəyişikliklər etməyi, xalqın güzəranını yaxşılaşdırmağı, ilk növbədə, Azərbaycan tarixini, mədəniyyətini, milli-mənəvi dəyərlərini dünyada təbliğ etməyi, sevdirməyi yalnız Heydər Əliyev kimi müdrik, uzaqgörən bir şəxsiyyət həyata keçirə bilərdi.

Ulu öndər xalqın rifahı naminə əlindən gələni əsirgəmədi. Qurdu, yaratdı, insanların böyük hörmətini qazandı, hələ sağ ikən milyonların qəlbində özünün ölməz, yenilməz abidəsini ucaltdı.

Qurtuluş günümüz – Heydər Əliyevin yenidən siyasi hakimiyyətə gətirilməsi məhz həmin məhəbbətdən, etimaddan qaynaqlandı. Azərbaycan xalqı 1993-cü ilin çətin, dəhşətli iyun günlərində özünün xilaskarı hesab etdiyi Heydər Əliyevə üz tutdu, imidini, inamını, ölkənin nicatını, gələcəyini onun simasında, qətiyyətində, sədaqətində, uzaqgörənliyində, vətənpərvərliyində gördü. Çünki xalq öz oğluna – onun qeyri-adi rəhbərlik metoduna, təşkilatçılığına, prinsipiallığına, zəkasına, fenomen yaddaşına, geniş dünyagörüşünə, Vətənə, xalqa məhəbbətinə inanırdı.

Belə bir ağır vəziyyətdə xalqın təkidi ilə hakimiyyətə gələn Heydər Əliyev Azərbaycanı məhv olmaq təhlükəsindən qurtardı, ölkədə ictimai-siyasi sabitlik yaradıldı, silahlı birləşmələr ləğv edildi, beynəlxalq əlaqələr möhkəmləndi, dövlət quruculuğu qaydaya salındı, həyat nizama düşdü.

1994-cü ilin sentyabrında imzalanan "Əsrin müqaviləsi" Heydər Əliyev uzaqgörənliyinin dünya əhəmiyyətli uğuru hesab olunmaqla, Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının tərkib hissəsi və gələcək mühüm neft-qaz layihələrinin həyata keçirilməsi, beynəlxalq əhəmiyyətli müqavilələrin bağlanması üçün bir təməldir, istiqamətdir.

Heydər Əliyevin səyləri nəticəsində xalq-hakimiyyət münasibətləri, vətəndaş-dövlət əlaqələri təkmilləşdirildi, qarşılıqlı etimad səyləri yaradıldı. Nizamsız silahlı dəstələrdən olan Azərbaycan Ordusu az bir zamanda yenidən təşkil edildi, hərbi-hazırlıq səviyyəsi yüksəldildi, orduda möhkəm nizam-intizam yaradıldı. Bu, keçmiş Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin gedişatında, atəşkəsin təmin edilməsində və bugünkü uğurlarımızda böyük əhəmiyyətə malikdir.

"Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır" amalı ilə yaşayan Heydər Əliyev sözünü əmələ çevirməklə dünyanın ən böyük azərbaycanlısı adını daşımağa layiq olduğunu sübut etdi. Ulu öndər müəllifi olduğu milli inkişaf strategiyasını yaratmaqla gələcəyimiz üçün yollar açdı, hərtərəfli inkişafımızın uzunömürlülüyünü təmin edən təkmil irs, dövlətçilik xətti, siyasi məktəb yaratdı, azərbaycançılıq ideologiyasını bütün dünyaya yaydı və yaşatdı.

Azərbaycanlı olması ilə daim fəxr edən, qürur duyan bu dahi insan həyatını xalqına, Vətəninə bəxş etdiyi, xalqdan dəstək aldığı üçün özünü xoşbəxt sayır, yenilməz hesab edir və deyirdi: "İnanıram ki, müstəqil Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır".

Uzaqgörənliklə deyilmiş bu sözlər bu gün həqiqətə çevrilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ümummilli liderimizin siyasi kursunu uğurla davam və inkişaf etdirir, azrularını yaşadır, amallarını əməli işə çevirir, yeni, böyük hədəflərə yol açır, mühüm islahatlar, dövlət proqramları, əhəmiyyətli layihələr həyata keçirir.

Bu gün Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələrinin sırasındadır, beynəlxalq aləmdə tanınan bir ölkədir. Bu gün Azərbaycan düşmən üzərində tarixi qələbə qazanan, zəfər əldə edən, qalib bir ölkədir. Əlbəttə ki, bu qalibiyyət, bu zəfər, bu nailiyyətlər ulu öndərin adı ilə bağlıdır, onun təməlini qoyduğu, həyata keçirdiyi proqramların, o möhtəşəm layihələrin nəticəsidir.

Cənab Prezident atasının, ümummilli liderimizin ən müqəddəs arzusunu, onun ən ağrılı yeri olan bir vəzifəni həyata keçirdi və düşmən üzərində tarixi qələbə qazandı. Ulu öndərin ən böyük arzusu Qarabağımızı azad etmək, Şuşamıza getmək, işğal altında olan torpaqlarımızı düşməndən qurtarmaq idi.

Cənab Prezident bu çətin vəzifəni böyük uğurla və şərəflə yerinə yetirdi. Otuz illik mübarizədən sonra biz ərazilərimizi bütöv görürük və Qurtuluş Gününü zəfər qazanan bir ölkənin, qalib dövlətin vətəndaşları kimi qeyd edirik.

Bəli, ümummilli liderimiz Azərbaycanı daim müstəqil, azad, inkişaf edən, tanınan ölkə kimi görmək istəyirdi və mənalı ömrünü də bu müqəddəs amala sərf etmişdi. O ömrü ki, hər gün milyonlarla insanın qəlbində ideya, məslək, arzu, istək kimi yaşayır, yaradır və vətəndaşları gələcəyə ruhlandırır.

Allah ulu öndər Heydər Əliyevin ruhunu şad etsin. Nə qədər ki, Azərbaycan var, nə qədər ki, Azərbaycan xalqı var, ümummilli lider Heydər Əliyev də bizimlə yaşayır, onun ideyaları qalib gəlir və Qurtuluş Günü özünün müqəddəsliyini, möhtəşəmliyini, əbədiliyini yaşadır.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***